


# Paytaxt Bakının yaşıl gündəliyi

**Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizin bütün guşələrində, xüsusən də paytaxt Bakıda meşə massivləri, istirahət parkları salınır, mövcud yaşıllıq sahələri daha da genişləndirilir.**

Son illər Bakının yeni meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verilir. Qlobal ekoloji böhran fonunda şəhərlərin qədimliyinin qorunması ilə yanaşı, müasirləşməsi və modern dünyaya uyğunlaşdırılması, ətraf mühitin qorunması, problemlərin həlli istiqamətində paytaxtda genişmiqyaslı tədbirlər görülür.

**(davamı 4-cü səhifədə)**

COP29 Baku Azerbaijan



## Yaşıl dünya naminə həmrəy olaq!

# Paytaxt Bakının yaşıl gündəliyi

**(əvvəli 1-ci səhifədə)**

Əsas ekoloji problemlərdən biri olan iqlim dəyişmələrinin yaratdığı fəsadların qarşısının alınması, təsirlərinin azaldılması yönündə görülən işlər böyük əhəmiyyətə malikdir. Bu baxımdan, paytaxtımızda son illərdə həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Yaşıllıqların salınması, yaşayış massivləri yaxınlığında istirahət guşələrinin yaradılması və s. kinlər üçün istirahət parklarının salınması prioritetdir.

Son dövrdə Bakı şəhərinin müxtəlif rayonlarında istirahət parkları salınır və əsaslı təmir-bərpadan sonra istifadəyə verilir. Həmin istirahət məkanlarının açılışında dövlət başçısının şəxsən iştirakı da göstərir ki, Prezident İlham Əliyev Bakının "yaşıl şəhər"ə çevrilməsinə, ölkəmizin iqlim dəyişmələri ilə mübarizədə bütün səylərini birləşdirmələri üçün yaşayış massivlərinin yaxınlığında, yaşıllıq ərazilərində mütəmadi olaraq abadlıq işləri görülür.

Eyni zamanda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla xanım Əliyeva tərəfindən də məhəllələrarası parkların yaradılması formatı uğurla tətbiq olunur. "Bizim həyət" layihəsi çərçivəsində ərazilərdəki onlarla binanın fasadları, dam örtükləri, blokları təmir olunur,





abadlıq işləri təbiəti oksigenlə zənginləşdirməklə yanaşı, əhalinin istirahətinə, asudə vaxtını səmərəli, rahat keçirməsinə hesablanıb.



2021-ci il fevralın 1-də Bakının Yasamal rayonunda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilən meşə tipli park yaşıllıqsalma layihələrinin uğurla davam etdiyini göstərdi. Dörd hektar ərazini əhatə edən parkın sahəsinin 70 faizi meşə zonasından ibarətdir. Yeni park həm də şəhərin sosial-ekoloji vəziyyətinin yaxşılaşması baxımından əhəmiyyətlidir. Paytaxtın bu qəbildən görülən tədbirlərinin mühüm tərkib hissəsi olmaqla yanaşı, ətraf ərazilərdə yaşayan sakinlərin istirahətinin də yüksək səviyyədə təşkil edilməsinə geniş imkanlar yaradır.

Paytaxtımızın Həsən Seyidbəyli küçəsində istifadəsiz qalmış ərazidə salınan yeni "Çəmbərəkənd" parkı 2022-ci il iyunun 8-də dövlət başçısının iştirakı ilə istifadəyə verilib. Sahəsi dörd hektar olan bu parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Sakinləri sevindirən əsas məsələlərdən biri isə bu parka ərazinin tarixi adının verilməsi olub. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə quraşdırılıb, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib, müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Xüsusi vurğulamaq lazımdır ki, son illər şəhərsalmada insanların asudə vaxtlarını keçirmələri üçün meşə massivləri, bağlar, yaşıllıq sahələri, yaşayış massivlərinin yaxınlığında sahəsinə, ümumilikdə yaşıllaşdırma sahəsində görülən işlərə xüsusi diqqət ayırır. COP29 kimi mötəbər tədbirə ev sahibliyinin Azərbaycana həvalə edilməsi də ölkəmizin qlobal istiləşmə fonunda, sağlam gələcək naminə gördüyü işlərə verilən yüksək dəyərdən xəbər verir. Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması isə bu xüsusda çox önəmlidir.

İyulun 15-də dövlət başçısının Nərimanov rayonunda əsaslı şəkildə yenidən qurulan parkın açılışında iştirakı da bunu bir daha təsdiq edir. Ərazisi 4,1 hektar olan park XX əsrin 50-ci illərində salınıb. Şəhərin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park müasir dizaynda layihələndirilib. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanı yenidən qurulub. Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb. Qeyd edək ki, son dövrlərdə Nərimanov rayonunda sakinlərin rahatlığı, asudə vaxtlarını səmərəli keçirbütün yaş kateqoriyalarından olan insanlara istirahət etmək, idmanla məşğul olmaq, asudə vaxtını səmərəli keçirmək üçün şərait yaradılır. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması ilə Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilir.

Ötən ayın sonunda Prezident İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub. Bu ərazi əvvəllər "Antena" parkı kimi tanınırdı və baxımsız vəziyyətdə idi. İstirahət məkanının yenidən qurulması ilə bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Parkın ərazisi genişləndiriləcək 19 hektara çatdırılıb ki, onun 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Müasir istirahət kompleksində sakinlərin xoş istirahəti və asudə vaxtlarının maraqlı, rəngarəng keçməsi üçün hər cür şərait yaradılacaq. Belə ki, burada modern üslubda iki restoran inşa olunur. Həmçinin parkda iki fəvvarə də quraşdırılacaq. İşıqlandırma sistemi isə ən müasir standartlara uyğun tərzdə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq.

Gündən-günə gözəlləşən, müasirləşən, "yaşıl şəhər"ə çevrilən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı COP29-a hazırlaşan Bakıda bu istiqamətdə görülən işlər beynəlxalq tədbirə mühüm töhfələr verəcək.

**Bayram SALMANOV,**
**"Respublika".**